**Mehman Mirəli RAMAZANOV**
Azərbaycan Dövlət İqtisad Universitetinin magistrantı
E-mail: mr.ramazanov55@gmail.com

# AZƏRBAYCANDA HƏSSAS ƏHALİ QRUPLARI İLƏ İŞİN TƏŞKİLİNDƏ SOSİAL MENECMENTİN MÖVCUD VƏZİYYƏTİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Xülasə**

Azərbaycanda sosial cəhətdən həssas əhali qrupları - aztəminatlı ailələr, əlilliyi olan şəxslər, şəhid ailələri, ahıllar, qaçqınlar və məcburi köçkünlər - ilə işin təşkili dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biridir. Bu qrupların sosial müdafiəsi yalnız maddi dəstək mexanizmləri ilə məhdudlaşmır, eyni zamanda sosial xidmətlərin səmərəli idarə olunmasını və məqsədyönlü sosial menecment yanaşmalarının tətbiqini tələb edir. Məqalənin əsas məqsədi Azərbaycanda həssas əhali qrupları ilə iş sahəsində sosial menecmentin mövcud vəziyyətini təhlil etmək, tətbiq olunan idarəetmə mexanizmlərinin üstün və zəif tərəflərini müəyyənləşdirmək və təkmilləşdirmə istiqamətlərini əsaslandırmaqdır. Araşdırma çərçivəsində son illərdə həyata keçirilmiş sosial islahatların nəticələri, sosial müdafiə sistemində tətbiq edilən institusional yeniliklər və sosial xidmətlərin təşkili mexanizmləri təhlil edilmişdir. Xüsusilə "DOST" mərkəzləri modelinin tətbiqi sosial xidmətlərin vahid platforma üzərindən göstərilməsinə və idarəetmə proseslərinin optimallaşdırılmasına müsbət təsir göstərmişdir. Tədqiqatın aparılmasında müqayisəli təhlil, rəsmi statistik məlumatların analizi, normativ-hüquqi sənədlərin öyrənilməsi və məntiqi ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Dövlət Statistika Komitəsinin və aidiyyəti qurumların məlumatları əsasında hazırlanmış cədvəllər mövcud vəziyyətin obyektiv qiymətləndirilməsinə imkan vermişdir. Aparılan təhlil nəticəsində qurumlararası koordinasiya, "case management" yanaşmasının sistemli tətbiqi və icma əsaslı sosial iş mexanizmlərinin inkişafı sahəsində mövcud problemlər müəyyən edilmiş və sosial menecmentin səmərəliliyinin artırılmasına yönəlmiş konkret təkliflər irəli sürülmüşdür.

**Açar sözləri:** sosial menecment; həssas əhali qrupları; sosial müdafiə; sosial xidmət; yoxsulluq; inklüzivlik; DOST mərkəzləri.

**UOT:** 364.4:658
**JEL:** I38, H53, D63
**DOI:** https://doi.org/10.54414/CSBW2980

## Giriş

Müasir dövrdə cəmiyyətin sosial rifahını qorumaq və inklüziv inkişafını təmin etmək dövlətlər qarşısında duran əsas çağırışlardandır. Bu baxımdan, sosial cəhətdən həssas qrupların, yoxsul ailələrin, əlilliyi olan şəxslərin, valideyn himayəsindən məhrum uşaqların, qaçqın və məcburi köçkünlərin, yaşlıların və digər risk qruplarının, müdafiəsi xüsusi əhəmiyyət daşıyır. Azərbaycanda son illərdə həyata keçirilən sosial siyasət məhz bu həssas əhali qruplarının həyat səviyyəsinin yaxşılaşdırılmasını prioritet kimi müəyyən etmişdir. Ölkədə yoxsulluq səviyyəsinin 2000-ci illərdən bəri kəskin azalaraq 2023-cü ildə 5,2%-ə enməsi bunun bir göstəricisidir. Lakin rəqəmlərin yaxşılaşmasına baxmayaraq, həssas təbəqələrin cəmiyyətə tam inteqrasiyası və onların ehtiyaclarına uyğun effektiv idarəetmə mexanizmlərinin qurulması hələ də aktualdır.

"Sosial menecment" anlayışı sosial proseslərin idarə olunması və sosial problemlərin həlli üçün elmi əsaslı yanaşmalar tətbiq edən bir sahədir. Sosial menecmentin vacibliyi, iqtisadi inkişafın cəmiyyətin bütün təbəqələrinə bərabər şəkildə sirayət etmədiyi hallarda daha da artır. Xüsusilə həssas əhali qruplarının problemlərinin, yoxsulluq, işsizlik,

bərabərsizik, sosial izolyasiya və s. həllində düzgün menecment strategiyaları mühüm rol oynayır. Quliyev A.A. və Pənahov A.M. (2024) qeyd edirlər ki, sosial menecment sosial bərabərsizliyin azaldılması, yoxsulluğun minimallaşdırılması üçün hədəf proqramlarının hazırlanıb həyata keçirilməsində əsas vasitədir. Bu menecment yanaşması qərəzsiz, elmi təhlillərə əsaslanmalı və cəmiyyətin həssas təbəqələrinin ehtiyaclarına fokuslanmalıdır.

Bu məqalənin məqsədi Azərbaycanda həssas əhali qrupları ilə iş sahəsində mövcud sosial menecment modelini təhlil etmək, əldə olunan nailiyyətləri və mövcud boşluqları müəyyənləşdirmək, eləcə də sistemin təkmilləşdirilməsi istiqamətində təkliflər irəli sürməkdir. Araşdırmada son 5 ildə ölkədə aparılmış sosial islahatlar, statistik göstəricilər və elmi ədəbiyyatın təhlilinə istinad edilmişdir. Məqalənin strukturunda öncə mövcud vəziyyət analitik şəkildə dəyərləndiriləcək, ardınca sosial menecmentin qarşılaşdığı problemlər müzakirə olunacaq və sonda inkişaf istiqamətləri üzrə tövsiyələr təqdim ediləcəkdir.

**Sosial menecment və həssas əhali qrupları: mövcud vəziyyətin təhlili**

Əhalinin həssas qruplarına aid olan şəxslər dedikdə, sosial-iqtisadi, demoqrafik və ya sağlamlıq baxımından xüsusi qayğıya və müdafiəyə ehtiyacı olan insanlar nəzərdə tutulur. Bu qrup olduqca geniş spektri əhatə edir. Məsələn, uşaqlar və yetkinlik yaşına çatmayan yeniyetmələr, yaşlılar, fiziki və əqli sağlamlıq imkanları məhdud şəxslər, aztəminatlı ailələr, uzun müddət işsiz olanlar, qaçqınlar və məcburi köçkünlər, həmçinin cəmiyyətin müxtəlif növ ayrı-seçkiliklə üzləşən digər üzvləri bu kateqoriyaya daxildir. Araşdırmalar göstərir ki, məhz bu qrupların sayı artmaqda və onların üzləşdiyi çətinliklər daha mürəkkəb xarakter almaqdadır [6]. Həssas əhali qruplarının ehtiyaclarının qarşılanması üçün dövlət tərəfindən son illərdə bir sıra mühüm addımlar atılmışdır.

**Cədvəl 1.** Azərbaycanda sosial cəhətdən həssas əhali qrupları üzrə bəzi göstəricilər (2023-2024).

| **Göstərici** | **Sayı (nəfər/ailə)** | **İl** |
|---|---|---|
| Əlilliyi olan şəxslər (ümumi) | 498 442 nəfər (təxminən əhalinin 4,8%-i) | 2025 |
| O cümlədən, 18 yaşadək əlilliyi olan uşaqlar | 43 498nəfər | 2025 |
| Ünvanlı sosial yardım alan aztəminatlı ailələr | 72 672 ailə (təxminən 320 000 nəfər ailə üzvü) | 2024 |
| Sosial yardım alan ailə üzvlərinin orta sayı | ~4,4 nəfər | 2024 |
| Qaçqınlar və məcburi köçkünlər (IDP) | 658 000 nəfər | 2023 |
| Şəhid ailələri və müharibə veteranları üçün ayrılmış mənzillər (cəmi) | 16 000 ailə | 2024 |

**Mənbə:** [1, 2] məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 1-dən göründüyü kimi, ölkə üzrə əlilliyi olan şəxslərin sayı yarım milyona yaxın olmaqla, ümumi əhalinin təxminən 5%-ni təşkil edir. Həmçinin, 2024-cü ilin sonuna olan məlumata görə, 72 mindən çox aztəminatlı ailə ünvanlı dövlət sosial yardımı (ÜDSY) proqramından yararlanır ki, bu ailələrin tərkibində təqribən 300 mindən artıq insan vardır. Bu rəqəmlər həssas qrupların sosial müdafiəsinin əhatə dairəsini göstərir. Digər mühüm həssas qrup olan məcburi köçkünlərin sayı isə 2020-ci ildə Qarabağ müharibəsindən sonra müəyyən qədər azalsa da (təxminən 735 mindən 658 minə), hələ də çox yüksək olaraq qalır [5]. Bu da əhalinin təqribən 6-7%-nin uzun illərdir doğma yurdlarından kənarda yaşadığını göstərir. Azərbaycanın 44 günlük Vətən müharibəsində (2020) qazandığı qələbə sayəsində məcburi köçkünlərin öz torpaqlarına qayıdışı üçün şərait yaransa da, bu proses tədricən həyata keçirilir. “Böyük Qayıdış” proqramı çərçivəsində Zəngilanın Ağalı kəndində “ağıllı kənd”in salınması və digər azad edilmiş ərazilərdə infrastruktur quruculuğu işləri aparılır [11]. Lakin hələ ki, məcburi köçkün ailələrinin böyük əksəriyyəti əvvəlki məskunlaşma yerlərində dövlət dəstəyi ilə təmin olunur.

Həssas qrupların sosial müdafiəsi sahəsində Azərbaycanda formalaşmış institusional mexanizmlər çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) əsas icraedici qurum kimi çıxış edir [2]. Nazirliyin tabeliyində Dövlət Sosial

Müdafiə Fondu, Dövlət Məşğulluq Agentliyi, Sosial Xidmətlər Agentliyi və Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi fəaliyyət göstərir. Son illərdə sosial xidmətlərin operativliyini və şəffaflığını artırmaq məqsədilə bir sıra innovativ institusional yeniliklər tətbiq olunmuşdur. Bu baxımdan, 2019-cu ildən etibarən yaradılan "DOST" (Dayanıqlı və Operativ Sosial Təminat) mərkəzləri mühüm əhəmiyyət kəsb edir. Hazırda Bakı, Abşeron və Bərdə şəhərlərində 7 DOST mərkəzi, Şuşada "Qarabağ" DOST filialı və Zəngilanın Ağalı kəndində "Smart DOST" məntəqəsi vətəndaşlara "bir pəncərə" prinsipi əsasında xidmət göstərir (ƏƏSMN, 2024). DOST konsepsiyası vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə formalaşdırılmış və hazırda 162 sosial xidmətin vahid platformadan təqdim olunmasına imkan yaratmışdır. Bu model beynəlxalq səviyyədə də tanınaraq 60-dan çox beynəlxalq mükafata layiq görülmüşdür [9].

Sosial sahədə mühüm irəliləyişlərdən biri də sosial təminat proqramlarının maliyyə həcminin əhəmiyyətli dərəcədə artırılmasıdır. 2018-2024-cü illəri əhatə edən sosial islahatlar nəticəsində minimum əməkhaqqı 3,1 dəfə, minimum pensiya 3 dəfə yüksəldilmiş, sosial müavinət və təqaüdlərin orta məbləği isə 5 dəfə artmışdır. Nəticədə bu dövrdə sosial ödənişlərə əlavə 7 milyard manat yönəldilmiş və dövlət büdcəsində sosial xərclərin payı 41 faizə çatmışdır. Xüsusilə əlilliyi olan şəxslərə yönəldilən sosial ödənişlərin həcmi son illərdə 2,1 dəfə artaraq illik 2,5 milyard manata yaxınlaşmışdır [4].

Bununla yanaşı, aktiv məşğulluq tədbirlərinin genişləndirilməsi həssas qrupların sosial inteqrasiyasında mühüm rol oynayır. 2018-2024-cü illərdə Dövlət Məşğulluq Agentliyi vasitəsilə 635 min işsiz və işaxtaran vətəndaş işlə təmin edilmiş, 36 min nəfər peşə hazırlığı kurslarına cəlb olunmuşdur. Xüsusilə özünüməşğulluq proqramı çərçivəsində 2017-ci ildən etibarən 93 minə yaxın şəxs iqtisadi fəaliyyətə cəlb edilmiş və kiçik təsərrüfatlar yaradılmışdır [10]. Hazırda bu proqramla hər il 16 mindən çox şəxs əhatə olunur ki, bu da əvvəlki illərlə müqayisədə əhəmiyyətli artım deməkdir.

Ümumilikdə aparılan təhlil göstərir ki, Azərbaycanda həssas əhali qruplarının sosial müdafiəsi sahəsində sosial menecmentin institusional bazası gücləndirilmiş, xidmətlərin təşkili və maliyyə təminatı təkmilləşdirilmişdir. Bununla yanaşı, mövcud sistemdə koordinasiya və səmərəliliklə bağlı müəyyən problemlər qalmaqdadır ki, bu məsələlər növbəti bölmədə ətraflı təhlil [8].

**Sosial menecment sisteminin qarşılaşdığı problemlər**

Təhlil göstərir ki, həssas qrupların sosial müdafiəsi sahəsində mühüm addımlar atılsa da, sosial xidmətlərin təşkili və idarə olunmasında hələ də bir sıra struktural və funksional boşluqlar mövcuddur. İlk növbədə, sosial xidmətlər üzrə koordinasiya və inteqrasiya problemləri diqqət çəkir. Hazırda əlillər, aztəminatlılar, uşaqlar və digər həssas qruplarla iş müxtəlif qurumlar tərəfindən həyata keçirilir, lakin bu qurumlar arasında əməkdaşlıq və informasiya mübadiləsi kifayət qədər səmərəli deyil.

Nəticədə, müraciət edən vətəndaş eyni problemlə bağlı bir neçə dövlət orqanına yönləndirilir ki, bu da xidmətlərin təkrarlanmasına və boşluqların yaranmasına səbəb olur. Bu kontekstdə, mürəkkəb sosial problemlərin həlli üçün nəzərdə tutulan "case management" yanaşmasının Azərbaycanda hələ tam formalaşmadığı müşahidə edilir. Hərçənd bu model 2023-2026-cı illər üzrə dövlət proqramında nəzərdə tutulmuşdur, onun praktik tətbiqi hələ ilkin mərhələdədir [3]. "Case management"in effektiv tətbiqi üçün sosial işçi-menecerin rəhbərliyi altında fərdin ehtiyaclarına uyğun inteqrə olunmuş xidmət paketinin hazırlanması və icrası zəruridir ki, bu da hazırda mövcud koordinasiya boşluqlarını aradan qaldıra bilər.

Digər mühüm problem sosial yardımın hədəfədəyik səviyyəsi və resursların səmərəli bölgüsü ilə bağlıdır. Ünvanlı sosial yardım proqramı əsasən ehtiyaclı ailələri əhatə etsə də, illər üzrə yardım alanların sayında müşahidə olunan dalğalanmalar bu sahədə idarəetmə çətinliklərini ortaya qoyur.

Xüsusilə pandemiya dövründə yardım alan ailələrin sayının artması, sonrakı illərdə isə meyarların optimallaşdırılması ilə azalıb yenidən yüksəlməsi həm iqtisadi şəraitin, həm də proqram qaydalarındakı dəyişikliklərin təsirini əks etdirir. Elektron informasiya

sistemlərinin tətbiqi ünvanlılığı gücləndirsə də, qeyri-rəsmi gəlirlərin gizlədilməsi və məlumat çatışmazlığı kimi hallar hələ də mövcuddur. Bu baxımdan, sosial menecmentin əsas vəzifəsi resursların həqiqətən ehtiyacı olan təbəqələrə yönəldilməsini təmin etmək və ünvanlılıq prinsipini daha da möhkəmləndirməkdən ibarətdir.

**Cədvəl 2.** Ünvanlı dövlət sosial yardımı alan ailələrin və ailə üzvlərinin sayı (2020-2024).

| İl | Ailələrin sayı | Ailə üzvlərinin sayı (nəfər) |
|---|---|---|
| 2020 | 76 800 | 322 100 |
| 2021 | 62 000 | 264 100 |
| 2022 | 68 000 | 290 800 *(təxmini)* |
| 2023 | 64 000 | 272 300 |
| 2024 | 72 672 | ~310 000 *(təxmini)* |

**Mənbə**: [1, 2] məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Yuxarıdakı cədvəlin təhlili göstərir ki, ünvanlı sosial yardım proqramının əhatə dairəsi illər üzrə dəyişkən xarakter daşıyır. 2021-ci ildə pandemiyanın təsirlərinin zəifləməsi və yardım meyarlarının sərtləşdirilməsi nəticəsində yardım alan ailələrin sayı azalmış, lakin 2022-2024-cü illərdə real gəlirlərin inflyasiya fonunda azalması və meyarların indeksləşdirilməsi səbəbilə yenidən artım müşahidə olunmuşdur. Bu dinamika sosial menecment qərarlarının makroiqtisadi şəraitə çevik uyğunlaşdırılmasının vacibliyini göstərir. Əks halda, həqiqətən ehtiyacı olan ailələrin sistemdən kənarda qalması və ya ehtiyacı olmayanların yardımdan yararlanması riski yarana bilər. Bu baxımdan ünvanlılıq mexanizmlərinin daim təkmilləşdirilməsi zəruridir.

Həssas qruplarla iş sahəsində mühüm problemlərdən biri sosial xidmətlərin keyfiyyəti və kadr potensialı ilə bağlıdır. İnfrastrukturun inkişafına baxmayaraq, xüsusilə regionlarda ixtisaslı sosial işçilərə və menecerlərə ehtiyac yüksək olaraq qalır. Əlilliyi olan şəxslər üçün icma əsaslı reabilitasiya və baxım xidmətləri hələ tam sistemli təşkil edilməmişdir. Bununla yanaşı, son illərdə Sosial Xidmətlər Agentliyi tərəfindən reabilitasiya mərkəzlərinin yenilənməsi nəticəsində 2023-cü ildə 113 minə yaxın şəxsə xidmət göstərilmişdir [4]. Lakin psixososial dəstək və peşə reabilitasiyası sahələrində kadr çatışmazlığı hələ də qalmaqdadır ki, bu da xüsusən ucqar ərazilərdə xidmətlərin keyfiyyətinə mənfi təsir göstərir.

Digər mühüm problem ictimai iştirak və monitorinq mexanizmlərinin zəifliyidir. Sosial menecmentin səmərəliliyi dövlət orqanları ilə yanaşı vətəndaş cəmiyyəti institutlarının və qeyri-hökumət təşkilatlarının fəal iştirakını tələb edir. Azərbaycanda həssas qruplarla işləyən QHT-lər mövcud olsa da, dövlət-QHT əməkdaşlığı kifayət qədər inkişaf etməmişdir. Sosial sifariş və qrant mexanizmlərinin məqsədyönlü tətbiqi, eləcə də görülən tədbirlərin sistemli monitorinqi və qiymətləndirilməsi bu sahədə səmərəliliyi artıra bilər. Hazırda ƏƏSMN yanında fəaliyyət göstərən Milli Observatoriyanın elmi-analitik potensialının gücləndirilməsi və nəticələrin ictimaiyyətlə paylaşılması sosial menecmentdə şəffaflıq və hesabatlılığı artıracaqdır.

Ümumilikdə, aparılan təhlil göstərir ki, Azərbaycanda həssas qruplarla iş üzrə sosial menecment modeli inkişaf mərhələsində olsa da, koordinasiya, ünvanlılıq, kadr potensialı və ictimai iştirak sahələrində həllini gözləyən məsələlər mövcuddur. Bu problemlərin aradan qaldırılması istiqamətində təkliflər növbəti bölmədə təqdim ediləcəkdir.

**Sosial menecmentin təkmilləşdirilməsi istiqamətləri**

Yuxarıda qeyd olunan problemləri nəzərə alaraq, Azərbaycanda həssas qruplarla işin sosial menecmentinin təkmilləşdirilməsi məqsədilə bir sıra istiqamətlər üzrə addımların atılması zəruridir. İlk növbədə, sosial xidmətlər sahəsində qarşılıqlı əlaqələndirmə və "vahid pəncərə" yanaşması genişləndirilməlidir. DOST mərkəzlərinin fəaliyyəti göstərir ki, bu model xidmətlərin operativliyini artırmaqla yanaşı, vətəndaş məmnunluğunun yüksəlməsinə də müsbət təsir göstərir. Gələcəkdə ölkənin bütün regionlarında DOST mərkəzlərinin yaradılması və müxtəlif dövlət qurumlarının informasiya bazalarının vahid

reyestr üzərində inteqrasiyası məqsədəuyğundur. Ünvanlı sosial yardım, pensiya, müavinət, məşğulluq, səhiyyə və təhsil sahələri üzrə məlumatların birləşdirilməsi həssas vətəndaşların ehtiyaclarının daha dəqiq qiymətləndirilməsinə və xidmətlərin təkrarlanmasının qarşısının alınmasına imkan verər. Bu baxımdan, "case management" yanaşmasının tətbiqi xüsusi əhəmiyyət kəsb edir və onun effektivliyi məhz institusional inteqrasiyadan asılıdır [3]. Sosial işçilərin xüsusi hazırlığı və qurumlararası əlaqələndirmə səlahiyyətlərinin artırılması bu prosesin səmərəliliyini yüksəldə bilər.

İkinci mühüm istiqamət rəqəmsal texnologiyaların və data əsaslı idarəetmə yanaşmalarının gücləndirilməsidir. Sosial təminat və məşğulluq sahəsində elektron sistemlərin tətbiqinə baxmayaraq, böyük məlumatların analizi və proqnozlaşdırma imkanları hələ tam reallaşdırılmamışdır. ƏƏSMN və Dövlət Statistika Komitəsinin birgə analitik platformasının yaradılması ehtiyac duyulan ərazilərin və risk qruplarının operativ müəyyənləşdirilməsinə şərait yarada bilər. Data əsaslı qərarvermə resursların səmərəli bölgüsünü təmin etməklə yanaşı, ünvanlılıq prinsipini də gücləndirər [1, 7]. Bu çərçivədə rəqəmsal sosial kart sisteminə keçid şəffaflığın artırılmasına və vətəndaşların sosial hüquqlardan avtomatik yararlanmasına imkan verə bilər.

Üçüncü istiqamət sosial menecmentdə insan kapitalının inkişafı və kadr hazırlığı ilə bağlıdır. Müasir texnologiyaların tətbiqinə baxmayaraq, sosial xidmətlərin keyfiyyəti əsasən ixtisaslı kadr potensialından asılıdır. Sosial işçilərin davamlı təlimi, sertifikasiya proqramlarının təşkili və beynəlxalq təcrübə mübadiləsinin genişləndirilməsi bu sahədə mühüm rol oynaya bilər. Bu məqsədlə Sosial İşçilərin Tədris və İnkişaf Mərkəzinin yaradılması xidmətlərin keyfiyyətinin yüksəldilməsinə töhfə verə bilər.

Digər mühüm istiqamət ictimai-sosial tərəfdaşlığın genişləndirilməsidir. Sosial menecmentin effektivliyi dövlət orqanları ilə yanaşı QHT-lərin, icma strukturlarının və özəl sektorun prosesə fəal cəlb olunmasını tələb edir.

Nəhayət, sosial menecment islahatlarının dayanıqlılığını təmin etmək üçün qanunvericilik bazasının mütəmadi təkmilləşdirilməsi və tətbiq olunan mexanizmlərin təsirinin ölçülməsi vacibdir. Yeni yanaşmalar ilkin mərhələdə pilot layihələr vasitəsilə sınaqdan keçirilməli və monitorinq nəticələrinə əsasən genişləndirilməlidir. Bu cür mərhələli və ölçüləbilən idarəetmə yanaşması resurslardan səmərəli istifadəni və sosial menecment sisteminin davamlı inkişafını təmin edə bilər.

**Nəticə**

Aparılan təhlil göstərir ki, Azərbaycanda həssas əhali qrupları ilə işin təşkilində son illərdə əhəmiyyətli nailiyyətlər əldə edilmiş, sosial menecment sahəsində həyata keçirilən islahatlar nəticəsində sosial müdafiə sisteminin əhatəliliyi və vətəndaş məmnunluğu yüksəlmişdir. Minimum əməkhaqqı və pensiyaların dəfələrlə artırılması, ünvanlı sosial yardım proqramının modernləşdirilməsi və DOST mərkəzləri kimi innovativ həllərin tətbiqi milyonlarla vətəndaşın sosial rifahının yaxşılaşmasına şərait yaratmışdır. Xüsusilə 2018-2024-cü illər arasında sosial ödənişlərin ümumi həcminin 1,6 dəfə artması, dövlət büdcəsində sosial xərclərin payının 41 faizə çatması, eləcə də 44 günlük müharibədən sonra şəhid ailələri və qazilərə 16 min mənzil və 7700 avtomobilin verilməsi dövlətin həssas qruplara xüsusi diqqətinin göstəricisidir.

Bununla yanaşı, araşdırma mövcud sosial menecment modelində xidmətlərin koordinasiyasının tam təmin olunmaması, bəzi hallarda ehtiyacı olanların sistemdən kənarda qalması və sosial iş üzrə kadr çatışmazlığı kimi problemləri də üzə çıxarmışdır. Bu problemlərin aradan qaldırılması məqsədilə institusional koordinasiyanın gücləndirilməsi, "case management" yanaşmasının geniş tətbiqi, rəqəmsal həllərin və e-idarəetmə alətlərinin inkişafı, vahid sosial reyestrin və "sosial kart" sisteminin formalaşdırılması, habelə kadr potensialının gücləndirilməsi və vətəndaş cəmiyyəti institutlarının prosesə daha fəal cəlb olunması zəruri hesab olunur. Bu istiqamətdə atılacaq addımlar sosial menecmentin daha inklüziv, koordinasiyalı və dayanıqlı modelinin formalaşmasına, nəticə

etibarilə isə həssas əhali qruplarının sosial rifahının və cəmiyyətdə sosial ədalətin möhkəmlənməsinə xidmət edəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Əhalinin sosial müdafiəsi və həyat səviyyəsi göstəriciləri (2023–2024-cü illər üzrə operativ statistik məlumatlar). Bakı: 2025.
2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. Azərbaycanda sosial müdafiə və sosial təminat proqramlarının icrası üzrə rəsmi məlumatlar (2024-cü il üzrə yekun, 2025-ci il üzrə operativ məlumatlar). Bakı: 2025.
3. Aliyev M., Muradli A. Application of the case management method in Azerbaijan’s social service system. Social Issues, 2024;2(2):92–98.
4. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. Ensuring citizens’ welfare is at the core of President Ilham Aliyev’s policies. Bakı, 2024. https://sosial.gov.az/en/media/news/ensuring-citizens-welfare-is-at-the-core-of-president-ilham-aliyevs-policie
5. Internal Displacement Monitoring Centre (IDMC). Global Report on Internal Displacement 2024. Geneva: 2024.
6. Kelenterli A. Həssas əhali qruplarından olan şəxslərin psixopatoloji xüsusiyyətləri. Bakı Qızlar Universitetinin Elmi əsərləri, 2025;22(1):252–257.
7. Quliyev A.A., Pənahov A.M. Bərabərsizliklə mübarizədə sosial menecment: alətlər və strategiyalar. Hüquq və İdarəetmə - Audit jurnalı, 2024;4(46): 129–137.
8. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. Ensuring citizens’ welfare is at the core of President Ilham Aliyev’s policies (Press release). Baku: 2024.
9. President of the Republic of Azerbaijan. “Azərbaycan Respublikasının 2023-2026-cı illərdə sosial xidmətlərin inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında (Order No. 4059, 28.08.2023). Bakı: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 2023.
10. State Statistical Committee of the Republic of Azerbaijan. Statistical data on social protection and living standards (operational report). Baku: 2023.
11. Turgut A., Demir A.F. The issue of Azerbaijani internally displaced people and Armenian refugees in Karabakh. İnönü Üniversitesi Hüquq Fakültəsinin Dergisi (İnUHFD), 2025;16(1):124–136.


**Mehman Mirali RAMAZANOV**
Master's student at Azerbaijan State University of Economics

## THE CURRENT STATE OF SOCIAL MANAGEMENT IN ORGANIZING WORK WITH VULNERABLE POPULATION GROUPS IN AZERBAIJAN AND DIRECTIONS FOR ITS IMPROVEMENT

**Summary**

The organization of work with socially vulnerable population groups in Azerbaijan - including low-income families, persons with disabilities, families of martyrs, the elderly, refugees, and internally displaced persons - constitutes one of the priority directions of state social policy. Social protection of these groups is not limited solely to mechanisms of material support; it also requires effective management of social services and the application of targeted social management approaches. The main objective of the article is to analyze the current state of social management in the field of work with vulnerable population groups in Azerbaijan, to identify the strengths and weaknesses of the applied management mechanisms, and to substantiate directions for their improvement. Within the framework of the study, the outcomes of social reforms implemented in recent years, institutional innovations introduced in the social protection system, and mechanisms for organizing social services were analyzed. In particular, the implementation of the “DOST” centers

model has had a positive impact on the provision of social services through a unified platform and on the optimization of management processes. The research employed methods of comparative analysis, analysis of official statistical data, examination of normative legal documents, and logical generalization. Tables prepared on the basis of data from the State Statistical Committee and relevant government institutions enabled an objective assessment of the current state of the studied field. As a result of the analysis, problems related to inter-institutional coordination, the systematic application of the case management approach, and the development of community-based social work mechanisms were identified, and specific measures aimed at increasing the effectiveness of social management were proposed.

**Keywords:** social management; vulnerable groups; social protection; social services; poverty; inclusiveness; DOST centers

**Мехман Мирали РАМАЗАНОВ**
Магистрант, Азербайджанский Государственный Экономический Университет

## ТЕКУЩЕЕ СОСТОЯНИЕ СОЦИАЛЬНОГО МЕНЕДЖМЕНТА В ОРГАНИЗАЦИИ РАБОТЫ С УЯЗВИМЫМИ ГРУППАМИ НАСЕЛЕНИЯ В АЗЕРБАЙДЖАНЕ И НАПРАВЛЕНИЯ ЕГО СОВЕРШЕНСТВОВАНИЯ

### Резюме

Организация работы с социально уязвимыми группами населения в Азербайджане — малообеспеченными семьями, лицами с инвалидностью, семьями шехидов, пожилыми людьми, беженцами и вынужденными переселенцами - является одним из приоритетных направлений государственной социальной политики. Социальная защита данных групп не ограничивается исключительно механизмами материальной поддержки, а предполагает также эффективное управление социальными услугами и применение целенаправленных подходов социального менеджмента. Основной целью статьи является анализ текущего состояния социального менеджмента в сфере работы с уязвимыми группами населения в Азербайджане, выявление сильных и слабых сторон применяемых управленческих механизмов, а также обоснование направлений их совершенствования. В рамках исследования проанализированы результаты социальных реформ, реализованных в стране в последние годы, институциональные нововведения в системе социальной защиты и механизмы организации социальных услуг. В частности, внедрение модели центров «DOST» оказало положительное влияние на предоставление социальных услуг через единую платформу и оптимизацию управленческих процессов. В ходе исследования использовались методы сравнительного анализа, анализа официальных статистических данных, изучения нормативно-правовых документов и логического обобщения. Таблицы, подготовленные на основе данных Государственного комитета статистики и соответствующих государственных органов, позволили объективно оценить текущее состояние рассматриваемой сферы. По результатам анализа были выявлены проблемы межведомственной координации, системного применения подхода «case management» и развития механизмов социального обслуживания на уровне общин, а также предложены конкретные меры, направленные на повышение эффективности социального менеджмента.

**Ключевые слова:** социальный менеджмент; уязвимые группы населения; социальная защита; социальные услуги; бедность; инклюзивность; центры DOST.

**Daxil olub:** 30.01.2026